# O gün Azərbaycan yenidən doğuldu



**XXI əsrin hərbi-siyasi tarixində 2020-ci il 27 sentyabr tarixi Azərbaycan üçün dönüş nöqtəsi kimi qəbul olunur. Bu gün yalnız müharibənin başlandığı tarix deyil, həm də milli oyanış, dövlət iradəsi və hərbi qüdrətin təntənəsi kimi yadda qaldı. Azərbaycan Silahlı Qüvvələri həmin gün uzun illər işğal altında qalan torpaqlarını azad etmək məqsədilə əks-hücum əməliyyatlarına başladı və bu əməliyyat sonradan tarixə 44 günlük Vətən Müharibəsi adı ilə düşdü.**

**27 sentyabr hadisələri Azərbaycanın hərbi tarixində üç mühüm aspekt üzrə xüsusi əhəmiyyət kəsb edir: strateji başlanğıc nöqtəsi, müasir ordu modelinin sınaq meydanı və hərbi-siyasi balansın dəyişməsi.**

1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini yenicə bərpa etdikdən sonra Ermənistan tərəfindən ərazilərinin 20 faizi işğal edilmiş, bir milyondan çox vətəndaş məcburi köçkün vəziyyətinə düşmüşdü. Onilliklər boyu davam edən danışıqlar nəticə vermədiyindən, 27 sentyabr 2020-ci ildə Azərbaycan Ordusu öz konstitusion hüququna əsaslanaraq, ərazi bütövlüyünü bərpa etmək üçün hərbi əməliyyatlara başladı.

Bu tarix Azərbaycanın hərbi doktrinasının praktik müstəviyə keçdiyi gün idi. Hərbi planlama, kəşfiyyat, dron texnologiyaları və koordinasiyalı hücum əməliyyatları 27 sentyabrdan etibarən yüksək dəqiqliklə həyata keçirildi. Azərbaycanın yeni tipli ordu konsepsiyası - "ağıllı müharibə" modeli ilk dəfə bu tarixdə real şəraitdə sınaqdan keçdi və uğurla nəticələndi.

27 sentyabr hadisəsi göstərdi ki, Azərbaycan Ordusu artıq təkcə say çoxluğuna deyil, texnoloji üstünlüyə və hərbi düşüncə tərzinə də sahibdir. Hərbi əməliyyatlar zamanı pilotsuz uçuş aparatlarının, kəşfiyyat-dronlarının və yüksək dəqiqlikli silah sistemlərinin istifadəsi ordunun yeni dövrə keçidini nümayiş etdirdi.

Bu tarix həm də zabit və əsgər heyətinin döyüş ruhunun, vətənpərvərlik hissinin ən yüksək mərhələyə çatdığını sübut etdi. İlk günlərdə Füzuli, Cəbrayıl, Tərtər və Ağdərə istiqamətlərində əldə olunan irəliləyişlər ordunun hərbi-professional hazırlığının yüksək səviyyəsini təsdiqlədi.

**27 sentyabr 2020-ci il həm də regionda uzun illər davam edən hərbi-siyasi balansı köklü şəkildə dəyişdirdi. Ermənistan ordusunun illərlə "məğlubedilməz" obrazı bu tarixdən sonra qısa zamanda sarsıldı. Azərbaycan Ordusunun irəliləyişi beynəlxalq müşahidəçilər üçün sürpriz oldu və Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının əsasını qoydu.**

Azərbaycanın qətiyyətli mövqeyi və hərbi uğurları nəticəsində 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanat bölgədə yeni reallıq yaratdı. Bu reallığın başlanğıc nöqtəsi isə məhz 27 sentyabr idi.

Hərb tarixi təkcə döyüş meydanındakı qələbələrlə deyil, həm də xalqın mənəvi birliyi ilə yazılır. 27 sentyabr günü milyonlarla Azərbaycan vətəndaşı ordusuna dəstək verdi, vətənpərvərlik hissi hər bir ailədə yenidən alovlandı. Bu gün həm də Milli Dirçəliş Günləri silsiləsində yeni bir mərhələ açdı.

Azərbaycanın tarixində 27 sentyabr artıq sadəcə müharibə başlanğıcı deyil, haqqın bərpasının rəmzi kimi yadda qalıb. Bu tarix bir xalqın səbir, inam və əzm ilə 30 illik ədalətsizliyə son qoyduğu anı ifadə edir.

Beləliklə, 27 sentyabrın hərbi tarixdə rolu çoxşaxəlidir: o, həm strateji başlanğıc nöqtəsidir, həm yeni dövrün hərbi-siyasi fəlsəfəsini formalaşdıran gündür, həm də milli qürur tarixidir. **Bu gün Azərbaycan dövlətçiliyinin gücünü, xalq-ordu birliyinin bənzərsiz nümunəsini göstərərək, gələcək nəsillər üçün qəhrəmanlıq və milli iradə dərsi oldu.** 27 sentyabrda başlanan əməliyyatlar Azərbaycan hərbi tarixində yeni bir mərhələnin qapısını açdı. Bu mərhələ təkcə ərazi bütövlüyünün bərpası ilə deyil, həm də müasir müharibə anlayışına yeni yanaşmanın nümayişi ilə yadda qaldı. Azərbaycan Ordusu uzun illər ərzində həyata keçirilən hərbi islahatların, modernləşmə proqramlarının və beynəlxalq əməkdaşlıq çərçivəsində toplanan təcrübənin nəticəsini döyüş meydanında real şəkildə ortaya qoydu. Hər bir hərbi əməliyyat yüksək dəqiqliklə planlaşdırılmış, müxtəlif qoşun növləri arasında koordinasiya təmin edilmişdi. Bu da sübut etdi ki, Azərbaycan Ordusu artıq klassik müharibə modelindən çıxaraq, informasiya, texnologiya və kəşfiyyat üstünlüyünə əsaslanan müasir ordu səviyyəsinə yüksəlib.



Əməliyyatların ilk günlərindən etibarən düşmənin illərlə qurduğu müdafiə xətləri dron və artilleriya zərbələri ilə sıradan çıxarıldı. Xüsusilə pilotsuz uçuş aparatlarının effektiv istifadəsi döyüşün gedişatını tamamilə dəyişdi. Bu taktika düşmən ordusunu çaşqın vəziyyətdə qoydu, onların texnikasını və canlı qüvvəsini ciddi itkilərə məruz qoydu. Ordumuzun sürətli irəliləyişi, həm də Azərbaycan xalqında böyük ruh yüksəkliyi yaratdı. Hər bir azad olunan kənd, hər bir qaldırılan üçrəngli bayraq xalqın birliyini daha da möhkəmləndirirdi.

27 sentyabrdan başlayan müharibə təkcə hərbi əməliyyat deyildi, bu həm də milli iradənin imtahanı idi. Xalqın ordusuna inamı, ordunun xalqdan aldığı mənəvi dəstək müharibənin əsas psixoloji dayağına çevrildi. Gənclər könüllü şəkildə cəbhəyə yollandı, arxa cəbhədə insanlar bir nəfər kimi birləşdi. Azərbaycan xalqı bu prosesdə həmrəylik, dözüm və vətənpərvərlik baxımından tarixdə misli görünməmiş bir nümunə göstərdi. Hərbi-siyasi rəhbərliyin qətiyyətli mövqeyi, Müzəffər Ali Baş Komandanın çağırışları və strateji qərarları müharibənin taleyini müəyyənləşdirən əsas amillərdən biri oldu.

Eyni zamanda, 27 sentyabr hadisələri beynəlxalq münasibətlər sistemində də rezonans doğurdu. Dünya ictimaiyyəti, uzun illər boyu nəticəsiz qalan danışıqlar prosesinin əvəzində, Azərbaycanın öz torpaqlarını hərbi-siyasi yolla azad etdiyini gördü. Bu, beynəlxalq hüququn ədalətli prinsiplərinin reallaşması idi. Azərbaycan BMT-nin qəbul etdiyi qətnamələrin icrasını faktiki olaraq öz gücü ilə təmin etdi. Bu fakt Azərbaycanın regionda hərbi və diplomatik çəkisini daha da artırdı.

Bu dövrdə Azərbaycan Ordusunun göstərdiyi çeviklik, strateji planlama və döyüş sinxronluğu dünya hərbi ekspertləri tərəfindən də yüksək qiymətləndirildi. Cəmi bir neçə gün ərzində bir neçə istiqamətdə irəliləyiş əldə etmək, düşmənin çoxillik sədd sistemlərini yarmaq və yeni döyüş xətti formalaşdırmaq ordumuzun taktiki ustalığının göstəricisi idi. Bütün bunlar 27 sentyabrın Azərbaycan hərbi tarixində bir başlanğıc nöqtəsi deyil, həm də gələcək nəsillər üçün qürur simvoluna çevrildiyini bir daha təsdiqlədi.

27 sentyabrın hərb tarixində rolu gənclər arasında xüsusi əhəmiyyətlə təbliğ edilməlidir. Bu tarix Azərbaycan xalqının qəhrəmanlıq, birlik və dövlətçilik iradəsinin simvoludur. Həmin gün başlanmış Vətən müharibəsi ölkəmizin müstəqilliyinin, ordumuzun gücünün və gənc nəsillərin vətənpərvərlik ruhunun təcəssümünə çevrildi. Gənclər bilməlidir ki, 27 sentyabrda başlayan mübarizə təkcə ərazi bütövlüyü uğrunda deyil, həm də milli ləyaqət və tarixi ədalət uğrunda idi.

Bu gün məktəblərdə, universitetlərdə, gənclər təşkilatlarında həmin tarixin dərindən öyrədilməsi, qəhrəmanların həyat hekayələrinin paylaşılması, filmlər, sərgilər və sosial layihələr vasitəsilə 27 sentyabrın mənasının gənc nəslin şüuruna yeridilməsi vacibdir. Bu təbliğat gənclərdə vətənə sevgi, dövlətə sədaqət və milli qürur hisslərini gücləndirir.

27 sentyabrı tanıyan və anlayan gənc nəsil tarixini qoruyur, gələcəyini möhkəmləndirir. Bu tarix onlara göstərir ki, azadlıq və suverenlik qəhrəmanlıq və fədakarlıqla qazanılır. Gənclər bu ruhu yaşatdıqca, Azərbaycan Ordusunun və xalqının zəfər iradəsi də daim güclü qalacaq.

27 sentyabr yalnız xatirə günü kimi deyil, həm də azərbaycançılıq ruhunun, milli əzmin və hərbi qüdrətin simvolu kimi anılır. Hər il bu tarix gəldikcə xalq o günün başlanğıcını - ordumuzun zəfərə doğru atdığı ilk addımı qürurla yada salır. 27 sentyabr bir millətin qəlbində və tarix yaddaşında əbədi qalacaq, çünki həmin gün təkcə müharibə başlamadı - həmin gün Azərbaycan yenidən doğuldu.

*Yunis İSRƏFİLOV*